BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2014*

**UOT 94(429:24)**

# AZƏRBAYCAN DİASPORUNUN FORMALAŞMASININ TARİXİ MƏRHƏLƏLƏRİ

**Z.M.ƏSGƏROVA**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***diaspor2012@mail.ru***

*Azərbaycan diasporunun formalaşması prosesinin tarixi kifayət qədər dərin köklərə malikdir. Azərbaycanlıların dünya ölkələrinə miqrasiyasının müxtəlif dövrləri mövcuddur və bu dövrlərdə baş vermiş mühacirət dalğaları öz tərkibi, səbəbi və vaxtı baxımından fərqlidir. Müxtəlif dövrlərdə xarici ölkələrdə Azərbaycan icmalarının yaranması Azərbaycan diasporunun formalaşması və yaranmasına gətirib çıxarmışdır.*

**Açar sözlər:** vətən tarixi, diaspor, mühacirət, Azərbaycan diasporu

Məqalədə Azərbaycan diasporunun yaranma tarixinin müxtəlif dövrləri, səbəbləri araşdırılmışdır.

Azərbaycan diasporunun təşəkkül və formalaşması tarixini aşağıdakı şəkildə qruplaşdırmaq olar.

1. VII əsrin sonu və VIII əsrin əvvəllərində İslam dininin qəbulu ilə əlaqədar Azərbaycanda ərəbdilli elm və mədəniyyətin inkişafı və bununla bağlı olaraq onlarla azərbaycanlı şair, alim və mütəfəkkirin İslam dini dövlətlərinə və digər ərazilərə mühacirəti.

2. X əsrdən XIX əsrədək Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində əslən Azərbaycandan olan yüzlərlə tələbə və alimin çalışması, Azərbaycan milli təfəkkürünün region xalqların intibahında rolu.

3. XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsi və 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrindən sonra yüzlərlə azərbaycanlının xarici ölkələrə miqrasiyası.

4. XX əsrin əvvəlləri - 1905-1906-cı illərdə, habelə 1918-ci ildə ermənilərin törətdiyi məqsədli soyqırım, etnik təmizləmə siyasəti nəticəsində minlərlə soydaşımızın qətlə yetirilməsi, tarixi torpaqlarımızı tərk etməsi.

5. Azərbaycan Demokratik Respublikasının süqutundan (1918-1920) sonra Sovetlərin hakimiyyətə gəlməsi ilə Azərbaycandan çoxsaylı ziyalılar, o cümlədən siyasi xadimlər və hərbçilərin sovet repressiya rejimindən xilas olmaq məqsədilə ailələri ilə birlikdə vətəni tərk edərək mühacirət həyatını

qəbul etməsi.

6. XX əsrin 30-cu illərində baş vermiş repressiyalar və 1941-1945-ci illər rus-alman müharibəsi zamanı əsir düşən və bir daha vətənə dönməyən azərbaycanlılardan ibarət icmaların yaranması.

7. XX əsrin 50-60-cı illərində Azərbaycandan yüzlərlə gənc Bratsk SES-in tikintisində, Donbas şaxtalarının işə salınmasında, Qazaxıstanda dəmir yolu xətlərinin çəkilməsində, xam torpaqların münbitləşdirilməsində işləmək üçün göndərilmiş və onların çoxu daimi yaşamaq üçün oralarda qalmışlar.

8. Cənubi Azərbaycanda baş verən ictimai-siyasi hadisələrlə: Səttərxan milli-azadlıq hərəkatı (1905-1911), Şeyx Məhəmməd Xiyabani (1917-1920), S.Pişəvərinin rəhbərliyi ilə azadlıq hərəkatı (1945), 1979-cu ildə İran İslam İnqilabı nəticəsində on minlərlə azərbaycanlının Qərb ölkələrinə axışması və məskunlaşması.

9. Erməni təcavüzünün (1988-1994) başlanması, Ermənistanda yaşayan azərbaycanlıların kütləvi deportasiyası, SSRİ-nin süqutu, Dağlıq Qarabağın və ətraf rayonların ermənilər tərəfindən işğalı.

XIX əsr Azərbaycan diasporunun formalaşması tarixində xüsusi bir mərhələ təşkil edir.

Rusiya və İran arasında imzalanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri Azərbaycan ərazisini iki yerə parçaladı. Ölkənin şimalı ilə cənubu arasında kəskin bir uçurum formalaşdı, vahid bir xalqın milli mədəniyyəti ikiqat diskriminasiya siyasətinə məruz qaldı, illər keçdikcə milli mədəniyyətin inkişafında fars və rus təsiri hakim olmağa başladı. Bu müqavilələrin imzalanmasından sonra Azərbaycanın Çar Rusiyasının tərkib hissəsinə keçməsi ilə razılaşmayan yüzlərlə Şimali azərbaycanlı xarici ölkələrə miqrasiya etmişdir.

Soydaşlarımızın dünya ölkələrinə miqrasiyasının növbəti mərhələlərindən biri XX əsrin əvvəlləri 1905-1906-cı illərdə, 1918-ci ildə ermənilərin törətdiyi məqsədli soyqırım, etnik təmizləmə siyasəti nəticəsində minlərlə soydaşımızın qətlə yetirilməsi, tarixi torpaqlarını tərk etməsi olmuşdur. Azərbaycan ərazisində xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımı siyasəti nəticəsində azərbaycanlıların müəyyən qismi Türkiyə, İran və İraqa, sonra isə oradan bütün dünya ölkələrinə səpələnmişlər.

Rusiyanın kiçik xalqları əsarət altında saxlamaq siyasəti Azərbaycanda daha dözülməz idi. Rusiya bir tərəfdən ağır vergilərlə xalqı soyub talayır, digər tərəfdən müstəmləkəçiliyin ömrünü uzatmaq üçün xalqın ziyalı və mütəfəkkirlərini Sibir sürgünlərində məhv edirdi. Belə səbəblərdən xalqın igid oğulları qonşu ölkəyə Türkiyəyə köçməli olmuşlar.

XX əsrin əvvəllərində ermənilərin Azərbaycana qarşı törətdikləri vəhşiliklərlə ilk üzləşən Zəngəzur əhalisi olmuşdur. Zəngəzurun təkcə adamlarının deyil, torpağının, daşının da yaddaşında xalqımızın qəhrəman və müdrik keçmişinə dair sirri açılmamış çox böyük hadisələr yaşanmaqdadır. Zəngəzurda çox təhlükəli bir vəziyyət yaranmışdı. Daha doğrusu, A.Mikoyanın,

S.Şaumyanın Zəngəzur siyasətinin həyata keçirilməsinə başlandı. Mikoyanın Zəngəzur siyasəti Zəngəzurda azərbaycanlıları «əritməkdən» ibarət idi. Bu vaxt minlərlə adamları yenidən Gorusun türməsinə doldurdular. Onlara ağır işgəncələr verdikdən sonra «inqilab», «yeni cəmiyyət» düşmənləri «varlılar», «mülkədarlar» «qolçomaqlar» və s. adlar qoyaraq, güllələyib, cinayətin izini itirdilər. Belə bir vəziyyətdə əhalinin müəyyən hissəsi Türkiyəyə qaçmağa məcbur oldular (5, 25).

1918-ci ildə erməni silahlı qüvvələri tərəfindən Bakı quberniyasında 229 yaşayış məntəqəsi (Şamaxı qəzasında 58, Quba qəzasında 122), Gəncə quberniyasında 272 yaşayış məntəqəsi (Zəngəzurda 115, Qarabağda 157), İrəvan Quberniyasında 211 (İrəvan qəzasında 32, Yeni Bəyaziddə 7, Sürməlidə 75), Qars vilayətində 82 yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, yüz minlərlə əhali qırılmış və öz etnik ərazilərindən qaçqın düşmüşdü (3, 94).

Azərbaycan diasporunun formalaşmasında ciddi dönüş cəmi 23 ay ömür sürən və Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Respublikasının süqutundan sonra baş verdi. Minlərlə azərbaycanlı vətəni tərk edərək Asiya, Avropa və Amerika ölkələrinə səpələndilər.

1920-ci il aprelin 27-də Azərbaycan ərazisi bolşeviklər tərəfindən işğal edilmiş, ölkədə sərt sovet rejimi qurulmuşdur. Bu rejimə qarşı çıxan, milli müstəqilliyimizi müdafiə edən minlərlə həmvətənimiz məhv edilmiş, Uzaq Sibir və Qazaxıstana sürgün olunmuş, bir qismi isə canlarını xilas etmək üçün digər ölkələrə mühacirət etmişlər. Bu mühacirlərin əsasını sabiq mülkədarlar, sənaye və ticarət burjuaziyası, milli ordunun əsgər və zabitləri, yüksək dövlət məmurları, siyasi partiya üzvləri, müstəqil əqidəyə malik ziyalılar təşkil edirdi.

ADR-nin süqutundan sonra xaricə gedən Azərbaycan mühacirləri Tehran, Gilan, Trabzon və İstanbul şəhərlərində müxtəlif mühacir cəmiyyətləri qurmuş, lakin bu cəmiyyətlər uzun müddət fəaliyyət göstərməmiş və tezliklə öz fəaliyyətlərini dayandırmışlar.

Xaricdəki milli mühacirət iki əsas qrupa bölünürdü: Siyasi və qeyri-siyasi mühacirlər. Bu mühacirlərin heç olmazsa siyasi hissəsini mütəşəkkil hala gətirib müəyyən bir təşkilat ətrafında birləşdirmək vacib bir vəzifə kimi qarşıda dururdu (8.163).

1922-ci ildə M.Ə.Rəsulzadə İstanbula gələndən sonra ilk növbədə «Müsavat» partiyasının xarici ölkələr bürosunu yaratdı, 1923-cü ilin sentyabrında isə Azərbaycan mühacirlərini bir yerə toplaya biləcək «Yeni Qafqasya» məcmuəsini təsis etdi və çox keçmədi ki, o, Azərbaycan Milli Mərkəzi funksiyalarını daşımağa başladı. 1924-cü ildə İstanbulda Azərbaycan Milli Mərkəzi yaradıldı. Mərkəzin təşkilat komitəsinə M.Ə.Rəsulzadə, X.Xasməmmədov, M.Vəkilov, Ə.Əmircanov, Ə.Şeyxülislamov, M.V.Məmmədzadə, Şəfi Rüstəmbəyli, Məmməd Sadıq Axundzadə, A.Kazımzadə, Həsən Fəttahov, Əmirxan Xan Xoyski, Həmdi Qara Ağazadə, Əhməd Ağazadə və başqaları daxil idilər (8, 68).

Beləliklə, bütün bunlar təbiidir ki, Türkiyədə Azərbaycan diasporunun

geniş əhatə dairəsinin yaranmasına səbəb oldu.

Azərbaycanlıların dünya ölkələrinə miqrasiyasının baş verdiyi növbəti mərhələ keçmiş SSRİ-də 30-cu illərdə aparılmış repressiyalar və s. Ikinci dünya müharibəsinin (1941-1945) nəticəsi olmuşdur. Həmin illərdə də yeni repressiyalardan xilas olmaq məqsədilə xeyli azərbaycanlı xarici ölkələrə getmiş və mühacirətdən sonra vətənə qayıda bilməmişdir 1948-1953-cü illərdə ermənilər SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində azərbaycanlılar öz tarixi torpaqları olan Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiyasına nail oldular (7, 2).

1937 il iyulun 30-da SSRİ Xalq Daxili İşlər Komissarlığının «Keçmiş qolçomaqların, cinayətkarların və başqa antisovet elementlərin» repressiya olunması üzrə əməliyyat haqqında» 00447 № li operativ əmri Siyasi Büronun müzakirəsinə təqdim edildi. Bunun ardınca isə 1937-ci il avqustun 15-də «Vətən xainlərinin arvadlarının və uşaqlarının repressiya olunması üzrə əməliyyatlar haqqında» 00486 №-li operativ əmri verildi (7.9).

Bu sənədlər 1937-1938-ci illər kütləvi repressiyaların nüvəsini təşkil edirdi. 1937-ci ilin mayın 10-da 600 ailə yük vaqonlarında əsgərlərin müşayiəti ilə ömürlük yaşamaq üçün Orta Asiya və Sibirə yola salınmasına başlandı (7, 10).

SSRİ Daxili İşlər Nazirliyinin 19 yanvar 1955-ci il tarixli 0026 saylı əmrinə əsasən repressiya olunmuşların 26 min işinin yandırılması bu əməliyyatın dəqiq miqyasını göstərməkdə çətinliklər yaradır. Lakin bəzi sənədlərə əsasən aydınlaşdırmaq olur ki, 1937-ci ildən sonra Naxçıvan MR-dən 957, Biləsuvardan -290, Astraxan bazardan - 205, Əli Bayramlıdan - 145, Karyagindən - 155, Cəbrayıldan - 205, Ağcabədidən - 196, İmişlidən -348, Masallıdan - 208, Noraşendən - 417, Naxçıvan şəhərindən - 185 və Bakı şəhərindən - 218 ailə (deportasiya) sürgün olunub (7, 10).

Beləliklə, 30-cu illərdə xalqımızın ən qeyrətli oğul və qızları repressiyalara, təqiblərə məruz qalmış, ailələri isə Orta Asiya və Qazaxıstan çöllərinə, Uzaq Şərqə, Sibirə, Şimal adalarına sürgün edilmişlər.

İkinci dünya müharibəsi (1941-1945) illərində Azərbaycandan Sovet Ordusu sıralarına 700 minə qədər adam səfərbər olunmuşdur ki, onların da 11 mindən çoxu qadın idi (2, 17). Azərbaycan xalqı istər sovet-alman cəbhəsində, istərsə də arxa cəbhədə, bütün Avropa ölkəsində faşizmə qarşı başlanmış müqavimət və partizan hərəkatlarında fəal iştirak etmiş, böyük qəhrəmanlıqlar göstərmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, bu müharibədə minlərlə soydaşlarımız hərbi əsir düşərgələrində məhv edilmiş, sağ qalan minlərlə azərbaycanlı vətənə dönə bilməmiş, xarici ölkələrdə yaşamağa məcbur olmuşdur.

XX əsrin 50-60-cı illərində Azərbaycandan yüzlərlə gənc Bratsk SES-in tikilməsində, Donbas şaxtalarının işə salınmasında, Qazaxıstanda dəmir yolu xətlərinin çəkilməsində, xam torpaqlarının münbitləşdirilməsində işləmək üçün göndərilmiş və onların çoxu daimi yaşamaq üçün orada qalmışdır.

Cənubi Azərbaycanda baş verən ictimai-siyasi hadisələrlə: Səttərxan milli-azadlıq hərəkatı (1905-1911), Şeyx Məhəmməd Xiyabani (1917-1920),

S.Pişəvərinin rəhbərliyi ilə azadlıq hərəkatı (1945), 1979-cu ildə İran İslam İnqilabı nəticəsində on minlərlə azərbaycanlı Qərb ölkələrinə axışmış və orada məskunlaşmışdır.

Erməni təcavüzünün (1988-1994) başlanması, Ermənistanda yaşayan azərbaycanlıların kütləvi deportasiyası, SSRİ-nin süqutu, Dağlıq Qarabağın və ətraf rayonların ermənilər tərəfindən işğalı nəticəsində azərbaycanlıların xarici ölkələrə axınının növbəti mərhələsini təşkil edir.

1988-ci ildən ortaya atılan Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından qovuldu.

1992-ci ildən etibarən Dağlıq Qarabağ üstündə Ermənistanla başlanan münaqişə beynəlxalq xarakter aldı. Uzun müddət davam edən hərbi hücumlar qaçqınların sayının artmasına səbəb oldu. Bu münaqişə nəticəsində Azərbaycan tərəfindən 30 min nəfər həlak olmuş, 200 min nəfərdən artıq yaralanmış, əlil olmuş, minlərlə adam əsir, itkin düşmüş və girov götürülmüşdür. Dağlıq Qarabağ Muxtar Vilayətindən savayı onunla həmsərhəd olan digər yeddi rayon (Laçın, Kəlbəcər, Ağdam, Fizuli, Cəbrayıl, Zəngilan, Qubadlı) yəni Azərbaycan ərazisinin 20%-ə qədər hissəsi Ermənistan hərbi qüvvələri tərəfindən işğal edilmişdir (6, 50).

Beləliklə, ölkədə Ermənistandan və digər yerlərdən köçüb gələn qaçqınların və daxildəki məcburi köçkünlərin sayı birlikdə bir milyona yaxın olmuşdur.

Münaqişə Azərbaycanda demoqrafik vəziyyətin xeyli dəyişməsinə səbəb olmuşdur. Həmin dövrdə Azərbaycanı xeyli azərbaycanlı tərk etmişdir.

Əgər 1991-1994-cü illərdə miqrasiyaya mövcud siyasi qeyri-sabit vəziyyət, uzun müddət davam edən Dağlıq Qarabağ münaqişəsi, iqtisadi vəziyyət təsir göstərirdisə, sonrakı illərdə əsas etibarilə iqtisadi çətinliklər ucbatından əhalinin bir qismi xarici ölkələrə miqrasiya edirdi.

Azərbaycan vətəndaşlarının ən çox miqrasiya olunduğu ölkələr – Rusiya Federasiyası, Türkiyə, Ukrayna, Qazaxıstan və s. olmuşdur.

1997-1999-cu illərdə Azərbaycandan Rusiyaya gedən miqrantların arasında sayca çoxluq təşkil edən 7575 nəfər azərbaycanlı olmuşdur (6, 52).

Həm rəsmi, həm də müstəqil mənbələrə görə son illərdə Azərbaycandan əhalinin iqtisadi miqrasiyası digər növbəti illə müqayisədə xeyli çox olmuşdur. Əmək miqrasiyasının geniş yayılmasına əsas səbəb əhalinin bir qisminin öz ölkəsində iş tapmamasıdır. Hazırda xeyli sayda yüksəkixtisaslı mütəxəssislər xarici ölkələrə üz tutaraq əvvəl Türkiyə və Rusiyaya, sonra da onların vasitəsilə Qərbi Avropaya və Şimali Amerikaya köçüb gedirlər. Göründüyü kimi, Azərbaycanın müxtəlif dövrlərdə baş vermiş mühacirət dalğaları öz tərkibi, səbəbi və vaxtı baxımından fərqlidirlər. Diasporumuzun tərkibindən danışarkən müxtəlif dövrlərdə xarici ölkələrdə Azərbaycan icmalarının yaranması, Azərbaycan diasporunun formalaşması və yaranmasına gətirib çıxarmışdır.

Yuxarıda göstərilən araşdırmalara əsasən Azərbaycan diasporunun qədim dövrünə, bütün dövrlərdə keçdiyi mərhələlərə nəzər saldıq. Millətimizin nümayəndələrinin tək-tək, kiçik qruplarla, bəzən də kütləvi hallarda yaşadığı

xarici ölkələrdə, onların əmək fəaliyyəti, yaradıcılıqları yerli xalqın həyatının, tarixinin, mədəniyyətinin, incəsənətinin ayrılmaz hissəsinə çevrilmiş, həmin ölkələrdə Azərbaycanın adına, şöhrətinə səbəb olmuşdur.

### ƏDƏBİYYAT


1. Azərbaycan diasporuna dövlət qayğısı. Bakı: Çaşıoğlu, 2003, 299 s.
2. Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 456 s.
3. Arzumanlı V., Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
4. Nazim Rizvan. Azərbaycan diasporu tarixindən. Bakı: Borçalı NPM, 2002, 206 s.
5. Səbahəddin Eloğlu. Zəngəzur hadisələri. Bakı: Azərnəşr, 1993,150 s.
6. Sərdarov M. Azərbaycanda miqrasiya prosesləri.Bakı: Adiloğlu, 2004, 149 s.
7. Sabiroğlu F. İki ölüm arasında (Soyqırım - represiya). “Füyuzat” jurnalı, Bakı, 2010, №2, səh. 6-13.
8. Həşimova A. XX əsrin I yarısında Azərbaycan mühacirəti. Bakı: Bilik, 1992, 167 s.


## ИСТОРИЧЕСКИЕ ЭТАПЫ ФОРМИРОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ


**З.М.АСКЕРОВА**



### РЕЗЮМЕ

Процесс формирования азербайджанской диаспоры имеет достаточно глубокие исторические корни. Существуют разные природы миграции азербайджанцев в разные страны мира. Эмиграционные волны, возникающие в разные периоды, имеют различия по своей причине, по своему составу и времени. Возникновение общины азербайджанцев в разные времена, в разных странах, привело к образованию и формированию азербайджанской диаспоры.

В этой статье проанализированы разные периоды и причины образования азербайджанской диаспоры.



**Ключевые слова:** история страны, диаспора, миграция, азербайджанская диаспора


## HISTORICAL STAGES OF THE FORMATION OF THE AZERBAIJANI DIASPORA


**Z.M.ASGAROVA**



### SUMMARY

The formation process of Azerbaijani Diaspora has deep historical roots. There are different stages of the migration of Azerbaijanis in the world. Waves of Azerbaijanis’ migration that have occurred at different times differ in terms of their content, causes and period. The creation of the Azerbaijani communities in foreign countries at different times led to the formation and establishment of Azerbaijani Diaspora.

The article analyzes different periods and the reasons for the history of creation of the Azerbaijani Diaspora.



**Key words:** native history, diaspore, migration, Azerbaijani Diaspora